AZƏRBAYCAN RESPUBLİKASI

---

*Əlyazması hüququnda*

# XIX ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİ

# (POEZİYA)

**İxtisas** **5716.01-Azərbaycan ədəbiyyatı**

**Elm sahəsi** **Filologiya**

**İddiaçı** **Zenfira Müzəffər qızı ASLAN**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilən dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2023**

Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nurlana Müzəffər qızı Əliyeva**
Filologiya elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **İslam Eynəli oğlu Qəribli**
Filologiya elmləri doktoru, professor

**Yadulla Bədir oğlu Ağazadə**
Filologiya elmləri doktoru, professor

Filologiya üzrə fəlsəfə doktoru
**Əlimuxtar Həsən oğlu Muxtarov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
__________________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi:
filologiya üzrə fəlsəfə doktoru, dosent
__________________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri:
filologiya elmləri doktoru, dosent
__________________ **Leyla Kamran qızı Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlum olduğu kimi, iyirminci yüzilin sonlarında yetmiş ildən artıq davam edən sovet siyasi rejiminin çöküşü, Azərbaycanın yenidən özünün dövlət istiqlaliyyətinə qovuşması cəmiyyət həyatında siyasi baxış tərzinin köklü surətdə dəyişməsilə yanaşı, həmçinin milli-mənəvi müstəvidə yeniləşmənin gerçəkləşməsinə təkan vermiş oldu. Başqa sözlə, totalitar sovet rejiminin süqutu ilə bu hakimiyyətin formalaşdırmış olduğu mövcud ideoloji baza da dağıldı və bunun nəticəsində təbii olaraq ənənəvi stereotiplər tədricən aradan qaldırıldı. Məhz mövcud stereotiplərin aradan qaldırılması nəticəsində ədəbi-nəzəri fikirdə formalaşan yenilikçilik ruhu klassik ədəbi irsə münasibətdə də qabarıq şəkildə özünü büruzə verməkdədir. Bu da təbiidir, çünki müasir ədəbiyyat kimi klassik ədəbi irs də sovet siyasi rejiminin basqı və təzyiqlərinə məruz qalmışdır. Bu basqı və təzyiqlərin izlərini klassik Azərbaycan ədəbiyyatının hər hansı bir ədəbi örnəyində bu və ya başqa səpkidə hiss etməmək mümkün deyildir. Son illərdə yazılan müxtəlif səpkili tədqiqatlarda N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, Q.Zakir, A.Bakıxanov, M.F.Axundov, X.Natəvan, N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, M.Ə.Sabir, Y.V.Çəmənzəminli və b. sənətkarların yaradıcılıq yolunun yeni təfəkkür işığında təhlilə cəlb olunması bunu sübut etməkdədir. Son illərdə həmçinin milli ədəbiyyatımızın ayrı-ayrı ədəbi mühitlər kontekstində təhlilə cəlb olunması diqqəti çəkməkdədir. Bu mənada çağdaş Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran ən mühüm problemlərdən biri Qarabağ ədəbi mühitinin araşdırılmasıdır. Xüsusilə, XIX əsr Qarabağ ədəbi mühitin poeziya qolunun tədqiqi daha çox maraq doğurmaqdadır.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də XIX əsr Qarabağ ədəbi mühitinin sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığı tərəfindən müəyyən mənada yarımçıq, birtərəfli şəkildə dəyərləndirilməsidir. Belə ki, öz yaradıcılığında milli-

mənəvi dəyərlərə geniş yer verən, klassik janrın bənzərsiz, novator örnəklərini yaradan Qarabağ ədəbi mühitinə mənsub bəzi sənətkarlar bir çox məqamlarda qərəzli, haqsız, birtərəfli tənqidlərə məruz qalmış, əsərləri haqqında qeyri-obyektiv fikir və mülahizələr söylənmişdir. XIX yüzil Qarabağ ədəbi mühitinin poeziya qolunun təhlili fonunda həmin qərəzli, qeyri-obyektiv, yanlış fikir və mülahizələrin rədd və inkar olunması tədqiqatın aktuallığını təmin edən cəhətlərdəndir.

Azərbaycan ədəbiyyatşünaslığında XIX əsr Qarabağ ədəbi mühiti bu və ya digər şəkildə təhlil obyektinə çevrilmişdir. F.Köçərli, F.Qasımzadə, Ə.Cəfərzadə, K.Talıbzadə, Y.Qarayev, X.Məmmədov, K.Məmmədov, M.Mustafayev, N.Qarayev, R.Kərimov və b. tədqiqatçıların araşdırmalarında Qarabağ ədəbi mühiti və bu mühitə mənsub olan qələm sahibləri ilə bağlı müəyyən mülahizələrə təsadüf olunmaqdadır[1].

Şərqşünas A.Berjenin, H.Ə.Qayıbovun, M.Tərbiyətin əsərlərində Qarabağ ədəbi mühitini təmsil edən ədəbi şəxsiyyətlərin bioqrafiyası və yaradıcılıq yolu haqqında danışılmışdır[2].

---

1. Köçərli F. Azərbaycan ədəbiyyatı, [2 cilddə] – Bakı: Avrasiya-Press, – 2005.– 560 s.; Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı, – Bakı: Maarif, – 1974. – 488 s.; Qarayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIX-XX -yüzillər), – Bakı: Elm, – 2002. – 340 s.; Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı, – Bakı: CBS nəşriyyatı, – 2006.– 214 s.; Məmmədov K. Qasım bəy Zakir, – Bakı: Gənclik, – 1985.– 232 s.; Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira, – Bakı: Elm, –1975.– 272 s.; Mustafayev M. XIX əsr Azərbaycan satirik şeir nümunələri, – Bakı: APİ nəşriyyatı, – 1983.– 73 s.; Mustafayev M. XIX əsr Azərbaycan realist şeiri, – Bakı: APİ nəşriyyatı, – 1991.– 104 s.; Kərimov R. Qasım bəy Zakir və müasirləri, – Bakı: Elm və təhsil, –2013.– 252 s.; Poetik məclislər / Toplayanı və tərtib edəni Nəsrəddin Qarayev, – Bakı: Yazıçı, – 1987.– 525 s. və b.

2 Berje Adolf. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə…, / Tərtib edəni, nəşrə hazırlayanı və ön sözün müəllifi Əli Məmmədbağıroğlu, – Bakı: Elm və təhsil, – 2014.– 184 s.; Qayıbov Hüseyn Əfəndi. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir, [4 cilddə], c.1,– Bakı: Elm, – 1986.– 358 s.; Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan, – Bakı: Azərnəşr, – 1987.– 464 s.

Azərbaycanda yaranmış təzkirələrdə, habelə təzkirələrə həsr olunmuş tədqiqatlarda XIX əsr Qarabağ ədəbi mühitinin bəzi aspektləri işıqlandırılmışdır[3]

Bundan əlavə, XIX yüzilin ədəbiyyatına həsr olunmuş bəzi tədqiqatlarda Qarabağ ədəbi mühiti bu və ya digər şəkildə araşdırılmışdır[4].

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasının əsas məqsədi XIX əsr Qarabağ ədəbi mühitində poeziyanın təkamül salnaməsini bütövlükdə təhlil obyektinə çevirərək onun nə şəkildə inkişaf etdiyini araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi ön plana çəkilmişdir:

– XIX əsr Qarabağ ədəbi mühitinin ümumi mənzərəsinin canlandırılması;

– Qarabağda fəaliyyət göstərən “Məclisi-üns” və “Məclisi-fəramuşan” ədəbi məclislərinin poeziyanın inkişafında rolunun səciyyələndirilməsi;

– XIX əsrdə Qarabağda yaranan təzkirə və poetik topluların

---

[3] Qarayev N. “Təzkireyi-Ziyayi” və “Təzkireyi-Nəvvab” haqqında bəzi qeydlər, “Əlyazmalar xəzinəsində”, IV cild, – Bakı: 1976, – s. 78-87; Müctəhidzadə M. Riyazül-aşiqin, – Bakı: Azərbaycan nəşriyyatı, – 1995.– 248 s.; Nəvvab M.. Təzkireyi-Nəvvab, – Bakı: Azərbaycan nəşriyyatı, – 1998.– 560 s.; Topalova A. Ədəbiyyat tarixinin öyrənilməsində təzkirələrin rolu və Ağa Məhəmməd Müctəhidzadənin “Riyazül aşiqin” təzkirəsi, – Bakı: Elm, – 2001.– 100 s.; Гаибли Г. Автограф “Тазкира-и Навваб” как литературно-поэтический источник. Средневековые рукописи и проблемы истории культуры Азербайджана//Материалы научно-теоретической конференции, – Баку:1989, – с.32-38 və s.

[4] Cəfərzadə Ə. Azərbaycan poeziyasında xalq şeiri üslubu (XIX əsr materialları əsasında), I hissə, – Bakı: ADU nəşri, –1981.– 76 s.; Cəfərzadə Ə. Azərbaycan poeziyasında xalq şeiri üslubu (XIX əsr materialları əsasında), II hissə, – Bakı: BDU nəşri, – 1999.– 71 s.; Əliyev Ə. Qarabağ ədəbi mühiti və Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab” əsəri: /Filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı: 2012.– 142 s.; Hacıyeva A. Mir Möhsün Nəvvabın ədəbi-bədii irsi, – Bakı: Nurlan, – 2004.– 211 s.; Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri: /Filologiya üzrə fləsəfə doktoru dis. / – Bakı: 1971.– 301 s. və s.

poeziyanın öyrənilməsində rolunun aşkarlanması;

– Bəhs olunan dövrün poeziyasının mövzu, janr və üslub baxımından səciyyələndirilməsi;

– Qarabağ ədəbi mühitində poeziyanın inkişaf təkamülünün xronoloji ardıcıllıqla izlənilməsi;

– Qarabağ ədəbi mühitində sənətkar fərdiyyətindən qaynaqlanan poetik xüsusiyyətlərin aşkarlanması;

– Milli poeziyanın inkişafı fonunda üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– Azərbaycan ədəbiyyatının ümumi inkişafı kontekstində XIX əsr Qarabağ ədəbi mühitinin poetik özünəməxsusluqlarının üzə çıxarılması;

– Qarabağ ədəbi mühitini şərtləndirən ictimai-siyasi və kulturoloji amillərin səciyyləndirilməsi;

– Tədqiq olunan dövrdə Qarabağ ədəbi prosesinə təsir edən kulutroloji amillərin təzahür formalarının səciyyələndirilməsi;

– XIX əsr Qarabağ ədəbi mühitində poeziyanın inkişafının özünəməxsus, spesifik aspektlərinin izlənilməsi.

**Tədqiqatın elmi-metodoloji əsası.** Dissertasiya işi əsas etibarı ilə tarixi-müqayisəli metodun prinsipləri əsasında yazılmışdır. Mövzunun araşdırılması zamanı ədəbi tənqid və ədəbiyyatşünaslığın elmi-nəzəri müddəalarından, dünya və Azərbaycan ədəbiyyatşünaslığına dair ən mühüm tədqiqatların nəticələrindən bəhrələnilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- XIX əsrdə Qarabağ ədəbi mühiti özünəməxsus, bənzərsiz, mürəkkəb inkişaf yolu keçmişdir. Bu özünəməxsusluq istər mövcud ədəbi mühitin formalaşamasını şərtləndirən icitmai-siyasi amillərlə, istərsə də yaranmış bədii örnəklərlə müşayiət olunmaqdadır. Əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran imperiyaları arasında ikiyə parçalanması xalqın ictimai-siyasi həyatında olduğu kimi, ədəbi-kulturoloji sferada da ciddi dəyişikliklərin gerçəkləşməsinə təkan vermişdir.

- XIX əsrdə Qarabağda "Məclisi-üns" və "Məclisi-fəramuşan"

ədəbi məclisləri fəaliyyət göstərmişdir. İstər "Məclisi-üns", istərsə də "Məclisi-fəramuşan" ədəbi məclisləri Azərbaycanda fəaliyyət göstərən digər məclislərlə əlaqə və ünsiyyət saxlamış, məktublaşmış, milli ədəbi prosesin formalaşmasına təsir göstərmişdir.

- XIX əsrdə Qarabağ ədəbi mühitində yaranan təzkirələr (Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin", Həsənəli xan Qaradağinin "Xan Qaradaği təzkirəsi" və b.) bütövlükdə Azərbaycan ədəbiyyatında təzkirəçiliyin forma və məzmunca yeniləşməsinə səbəb olmuşdur. Həmçinin bu təzkirələr dövrün ədəbi prosesini canlandırmaqla yanaşı, ictimai-siyasi mühitin xarakterik cizgilərini səciyyələndirən motivlərlə də zəngin olduğu üçün xüsusi əhəmiyyət kəsb edir.

- XIX yüzil Qarabağ ədəbi mühitində poeziya divan ədəbiyyatının yeni tərzdə inkişafı ilə səciyyələnməkdədir. Divan poeziyası tərzində yaranan əsərlərdə daha çox klassik dövr sənətkarlarının təsiri aşkar şəkildə duyulmaqdadır.

- Bəhs olunan dövrdə Qarabağ ədəbi mühitində xalq şeiri üslubuna qayıdış diqqəti çəkməkdədir. Belə ki, ənənəvi divan ədəbiyyatı tərzində yazılan şeirlərlə yanaşı, sadə xalq şeiri üslubunda əsərlərin yaranması poeziyanın inkişafını yeni müstəviyə çıxarmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi onun bu sahədə ilk sistemli tədqiqat əsəri olması ilə bağlıdır.

- Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq XIX əsr Qarabağ ədəbi mühiti poeziyanın təkamül və axtarış meylləri kontekstində ayrıca təhlil olunmuş, ədəbi növün inkişafı regional çərçivədə dəyərləndirilmişdir. Düzdür, əvvəlki dövrün tədqiqatlarında XIX əsr Qarabağ ədəbi mühitinə məxsus sənətkarların yaradıcılığı ilə bağlı müəyyən araşdırmalar aparılsa da, müdafiəyə təqdim olunan dissertasiyada bütöv bir əsrin poeziyası ədəbi mühitin özünəməxsusluğu və tarixi dövrün problemləri fonunda tədqiq edilmişdir.

- Dissertasiya işində XIX yüzildə Qarabağ ədəbi mühitində poeziyanın əldə etdiyi özünəməxsus, spesifik poetik xüsusiyyətlər

sistemli təhlilə çəkilmişdir. Bəhs olunan dövrün və mühitin ayrı-ayrı problemlər baxımından dəyərləndirilməsi lirik növün janr və üslub fərqliliyini izləməyə imkan vermişdir. Bu amil də dissertasiyanın elmi yeniliyini səciyyələndirən cəhətlərdən biri kimi diqqəti çəkməkdədir.

- Dissertasiyada Qarabağ ədəbi mühitinin özünəməxsusluqlarının aşkarlanması tədqiqatın elmi yeniliyini şərtləndirən amillərdəndir. Belə ki, ilk dəfə olaraq Qarabağ ədəbi mühiti bəlli bir zaman kəsimində poeziyanın təkamül meylləri kontekstində təhlil olunmuş, bu isə ədəbi mühitin özünəməxsus, spesifik xüsusiyyətlərini izləməyə imkan vermişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işi bu mövzuda yazılmış ilk tədqiqat əsəri kimi nəzəri-praktik əhəmiyyətə malikdir. Onun nəticələrindən ali məktəblərin filologiya fakültələrində ümumi və xüsusi kursların tədrisində yardımçı vəsait kimi istifadə oluna bilər.

Dissertasiya işi təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma formulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşımaqdadır. Dissertasiya işi həmçinin Qarabağ ədəbi mühitinin ayrı-ayrı mərhələlərini araşdıran tədqiqatçılar üçün mənbə rolunu oynaya bilər. XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə aid dərslik və dərs vəsaitləri, habelə monoqrafik araşdırmaların yazılışında dissertasiyanın müddəalarına istinad oluna bilər. Tədqiqat işindən yenidən yazılması zəruri olan Azərbaycan ədəbiyyatı tarixi üçün də istinad mənbələrindən biri kimi bəhrələnilə bilər. Həmçinin dissertasiya Azərbaycan ədəbiyyatının ədəbi mühitlər fonunda öyrənilməsi istiqamətində yazılan tədqiqatlarda qaynaq rolunu oynaya bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş məqalə və tezisdə, konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır.

Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında hazırlanmışdır.

Dissertasiyanın mövzusu Bakı Dövlət Universitetinin Elmi Şurasının 24 fevral 2006-cı il (protokol № 3) və Azərbaycan MEA "Müasir dövrdə dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə Respublika Əlaqələndirmə Şurası Bürosunun 14 noyabr 2007-ci il tarixli (protokol №2) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (13987 işarə), I fəsil (73174 işarə), II fəsil (56654 işarə), III fəsil (58616 işarə), nəticə (7699 işarə) və ədəbiyyat sıyahısından ibarət olmaqla, ümumi həcmi (210130 işarə) işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, öyrənilmə dərəcəsi göstərilir, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiya və strukturundan bəhs olunur.

Birinci fəsil **"XIX əsr Qarabağ ədəbi mühitinin ümumi mənzərəsi" adlanır.** Azərbaycan tarixində "*yeni dövrün başlanğıcı*"[5] kimi dəyərləndirilən XIX əsrdə Qarabağ ədəbi mühiti özünəməxsus, bənzərsiz bir inkişaf yolu keçmişdir. Bu dövrdə Azərbaycanın tarixində yaşanan mürəkkəb ictimai-siyasi proseslər regionun ədəbi-mədəni həyatında özünün dərin, silinməz izlərini qoymuşdur. "*Ədəbi və fikrin bir-biri ilə kəsişib qovuşduğu, yaxud haçalanıb ayrıldığı yollar həmişə Qarbağdan keçib*"[6] mülahizəsi bu mənada təsadüfi deyilməmişdir.

---

[5] Ömərov V. XIX əsrin ikinci yarısında Azərbaycan maarifçiliyində azərbaycançılıq ideyası məsələləri: [Elektron resurs] / URL: http: http://www.anl.az/down/meqale/ ses/2012/mart/238599.htm

[6] Qarayev Y. Tarix: yaxından və uzaqdan, – Bakı: Sabah, – 1996.– s.550

XIX əsrdə Qarabağ ədəbi mühiti Qasım bəy Zakir (1784-1857), Mir Möhsün Nəvvab (1833-1918), Xurşidbanu Natəvan (1832-1897), Mirzə Rəhim Fəna (1841-1929), Seyid Mir Həmzə Niğari (1805-1886), Mirzə Həsən Yüzbaşov (1824-1904), Mirzə Ələsgər Növrəs (1846-1911), Fatma xanım Kəminə (1840-1898), Abdulla bəy Asi (1839-1874), Həsənəli xan Qaradaği (1847-1929), Mirzə Məhəmməd Katib (1833-1888), Məmo bəy Məmai (1894-1918), Məhəmmədəli bəy Məxfi (1821-1892), Mirzə Sadıq Piran (1813-1898), Mirzə Haqverdi Səfa (1800-1903), İskəndər bəy Rüstəmbəyov (1845-1917), Məşədi Əyyub Baki (1866-1909), Xərrat Qulu Yusifi (1823-1883), Mirzə Sadıq Lətif oğlu Hicri (1811-1901), Mir Mehdi Xəzani və başqa imzalarla müşayiət olunmaqdadır. Müxtəlif mövzularda, müxtəlif janr və üslublarda yazıb-yaradan bu şairlərin yaradıcılıq irsi bütövlükdə bəhs olunan dövrün ədəbi mənzərəsini şərtləndirməkdədir.

**“Ədəbi mühiti formalaşdıran sosial-siyasi və kulturoloji amillər”** adlanan birinci paraqrafda göstərilir ki, XIX əsrdə Qarabağda ədəbi mühiti formalaşdıran sosial-siyasi və kulturoloji amilləri səciyyələndirmədən bəhs olunan problemlemin ümumi mənzərəsinə aydınlıq gətirmək mümkün deyildir.

Bilindiyi kimi, XIX yüzilin başlanğıcında Qarabağ xanlığı ilə Çar Rusiyası arasında bağlanan Kürəkçay sövdələşməsi (14 may 1805) ilə Azərbaycanın işğalına rəsmən imza atılmış oldu [32]. Bunun ardınca Rusiya və İran imperiyaları arasında imzalanan Gülüstan (24 oktyabr 1813) və Türkmənçay (10 fevral 1828) müqavilələri ilə Azərbaycanın parçalanması ölkənin ictimai-siyasi həyatında olduğu kimi, ədəbi-mədəni sferaya da ciddi təsir göstərmiş oldu. Ölkənin parçalanması ictimai-siyasi ziddiyyətləri bir qədər də kəskinləşdirmişdir. Çar Rusiyasının sərt müstəmləkəçilik rejimi altında yaşamağa məhkum olan Azərbaycan xanlıqları tədricən zəifləməyə, müstəqilliklərini itirməyə başlamışlar. Müstəmləkəçilik həyatı Azərbaycanda milli düşüncənin təqib olunmasına gətirib çıxarmışdır. “*Çar Rusiyası Azərbaycanı hakimiyyət altına aldığından süqutuna qədər türklərin*

*milliyyətini söndürmək üçün nə lazım isə etməkdən geri durmamışdır"*[7]. Lakin bununla belə, Azərbaycanın aydınları, vətənpərvər şəxsiyyətləri müstəmləkəçilik rejimi ilə heç bir zaman barışmamış, mövcud şərtlər çərçivəsində mübarizə və mücadilələrini davam etdirmişlər.

Parçalanmasın ilk dövrlərində Qarabağın əhalisi "*etnik baxımdan müsəlmanlardan, əsas etibarilə Azərbaycan türklərindən ibarət olmuşdur"*[8]. Azərbaycanın Quzeyinin Rusiyanın işğalına keçməsindən sonra tədricən bu əraziyə İrandan ermənilər köçürülməyə başlamışlar. Bütövlükdə "*vilayəti erməniləşdirmək məqsədilə*"[9] həyata keçirilən bu siyasət ermənilərin Azərbaycanın tarixi ərazilərinə köçürülməsi Rusiyanın işğalçılıq siyasətinin tərkib hissəsini təşkil edirdi və türk-müsəlman əhalisinin toplu halında yaşadığı bu ərazilərin xristianlaşdırılması məramına xidmət edirdi. Bu köçürülmə siyasəti Qarabağın yerli türk-müsəlman əhalisinin ciddi etirazlarına və narazılıqlarına səbəb olurdu. Çünki çar hökuməti ermənilərin ən məhsuldar ərazilərdə məskunlaşmasına yardım edir, torpaqların onların əlinə keçməsi üçün şərait yaradırdı. Şübhəsiz ki, bu düşünülmüş siyasət Qarabağı işğal etmək üçün tökülən planların başlanğıcı kimi dəyərləndirilməkdədir.

Rus istilasına və bu istilanın doğurduğu fəsadlara qarşı mübarizə, xüsusilə, Qarabağın ziyalı və intellektual təbəqəsi arasında daha qabarıq şəkildə özünü büruzə verirdi.

XIX əsrdə Qarabağ ədəbi mühiti həmçinin elmin müxtəlif sahələrinin inkişafı ilə xarakterizə oluna bilər. Biri-birinin ardınca yazılan və dövrün obyektiv tarixi mənzərəsini canlandıran "Qarabağnamə"lər Azərbaycan tarixşünaslığının dəyərli

---

[7] Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi, – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1992.– s. 104

[8] Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. – Moskva: Аквариус, – 2014.– с. 5

[9] Cəfərov N. Ermənilərin "tərcümeyi-hal"ı (tarixi-psixoloji oçerk) // Azərbaycan, – 2018, 6 iyul

örnəklərindən biri kimi ən mötəbər məxəzlərdən hesab olunur[10]. "Qarabağnamə"lər Qarabağın yalnız tarixi, icitmai-siyasi həyatı haqqında deyil, həmçinin dövrün ədəbi-mədəni mühiti barədə canlı, dolğun məlumat verən mənbələr kimi diqqəti çəkir.

Birinci fəslin **"Ədəbi məclislərin poeziyanın inkişafında rolu"** adlanan ikinci paraqrafında göstərilir ki, Azərbaycanda ədəbi məclislərin tarixi qədimlərə gedib çıxsa da, XIX əsrdə Azərbaycanda ədəbi məclislər daha sistemli xarakter almış, özünəməxsus inkişaf və təkamül yolu keçmişdir[11]. Bu dövrdə fəaliyyət göstərən "Gülüstan" (Quba), "Divani-hikmət" (Gəncə, Tiflis), "Əncümənüş-şüəra" (Ordubad), "Məclisi-üns", "Məclisi-fəramuşan" (Şuşa), "Beytüs – Səfa" (Şamaxı), "Fövcül-füsəha" (Lənkəran), "Məcməüş-şüəra" (Bakı) kimi ədəbi məclislər mövcud ədəbi prosesin inkişafına ciddi təkan vermişdir.

Qarabağda fəaliyyət göstərən "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclisləri mövcud ədəbi prosesin formalaşmasında və canlanmasında mühüm rol oynamışdır. Məhz bu ədəbi məclislərin fəaliyyəti nəticəsində Qarabağ ədəbi mühitini təmsil edən şairlər Azərbaycanın digər mədəniyyət mərkəzləri ilə sıx əlaqə və rabitə yarada bilmişdir.

Tarix etibarı ilə daha öncə fəaliyyətə başlayan "Məclisi-üns" ədəbi məclisi özünəməxsus inkişaf yolu keçmişdir: *"Məclisi-üns" (1864-1897) ədəbi məclisi Qarabağda – Şuşada fəaliyyət göstərmişdir. Ədəbi məclisin yaradıcıları Mirzə Rəhim Fəna və Hacı Abbas Agəh olmuşdur. 1972-ci ilədək məclis adsız fəaliyyət göstərmişdir. Həmin ildən ədəbi məclisə Xurşidbanu Natəvan (1832-*

---

[10] Bax: Mirzə Adıgözəl bəyin "Qarabağnamə" (1845), Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" (1847), Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahim Xəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" (1854), Mir Mehdi Xəzaninin "Tarixi-kitabi-Qarabağ" (1862), Mirzə Yusif Qarabaği Nersesovun "Tarixi-Safi" (1866), Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının siyasi vəziyyəti" (1884) və s.

[11] Aslan Z. XIX əsr Qarabağ ədəbi məclislərinin poeziyanın inkişafında rolu // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, –2010. № 2 – s.98-103

*1897) rəhbərlik etmiş və məclis öz fəaliyyətini Qarabağ xanının sarayına köçürərək burada davam etdirmişdir. "Məclisi-üns" – dostluq, ünsiyyət məclisi mənasını ifadə etməkdədir. Ədəbi məclisin yığıncaqlarında şairlərlə yanaşi musiqi xadimləri də iştirak etdiyindən bu onun fəaliyyətini daha da canlandırmış, müzakirələrin məzmununa ciddi təsir göstərmişdir*"[12]. "Məclisi-üns" ədəbi məclisinin fəaliyyəti xüsusilə Xurşidbanu Natəvanın rəhbərlik etdiyi dövrdə daha canlı olmuşdur. Həmin dövrdə ədəbi məclisdə otuzdan artıq şair fəaliyyət göstərmişdir. Bunların içərisində Mirzə Rəhim Fəna, Mirzə Həsən Yüzbaşov, Mirzə Ələsgər Növrəs, Məmo bəy Məmayi, Məhəmmədəli bəy Məxfi, Mirzə Sadıq Piran, Mirzə Haqverdi Səfa, İskəndər bəy Rüstəmbəyov və digər şairlər daha çox diqqəti çəkməkdədir. Xurşidbanu Natəvanın təxminən iyirmi ilə qədər rəhbərlik etdiyi "Məclisi-üns" ədəbi məclisində yaranan əsərlər Azərbaycan, fars və cığatay dillərini əhatə etməkdədir. Məclisdə Şərq şeirinin poetik özəllikləri öyrənilmiş, Natəvanın rəhbərliyi dövründə Qarabağ şairlərinin əlaqə və ünsiyyət sərhədləri xeyli genişlənmiş, Azərbaycanın hüdudlarından xeyli uzaqlara yayılmışdır.

Şuşada fəaliyyət göstərən "Məclisi-fəramuşan" adlı digər məclisinin ədəbi prosesin canlanmasında və inkişafında mühüm xidmətləri olmuşdur: "*Məclisi-fəramuşan" (1872-1918) Mir Möhsün Nəvvab tərəfindən Qarabağda – Şuşada yaradılmışdır. Belə ki, 1872-ci ildən "Məclisi-üns"ə Xurşidbanu Natəvanin rəhbərlik etməsi aşağı təbəqədən olan şairlərin sarayda keçirilən bu məclisin fəaliyyətində iştirak etməsinə imkan vermədiyindən onlar ikinci bir ədəbi məclisin – "Məclisi-fəramuşan"ın ("Unudulmuşlar məclisi") yaraılmasına qərar vermişlər. Lakin əvvəlcə Şuşada fəaliyyət göstərən bu iki ədəbi məclis arasında əlaqələr zəif olsa da, getdikcə ünsiyyət güclənmiş və onun üzvləri biri-birinin tədbirlərində iştirak etmişlər".*[13]

[12] Sultanlı V.Ədəbi tənqidin tədrisi məsələləri.–Bakı:Azərnəşr,–2007.–s. 68
[13]Sultanlı V. Ədəbi tənqidin tədrisi məsələləri.–Bakı: Azərnəşr,–2007.–s.70

Nəvvabın rəhbərlik etdiyi "Məclisi-fəramuşan" ədəbi məclisinin sıralarında Fatma xanım Kəminə, Abdulla bəy Asi, Həsənəli xan Qaradaği, Mirzə Məhəmməd Katib, Məşədi Əyyub Baki, Xərrat Qulu Yusifi, Mirzə Sadıq Lətif oğlu Hicri və b. şairlər fəaliyyət göstərmişlər.

Qarabağda fəaliyyət göstərən ədəbi məclislərin fəaliyyətindən danışarkən məclis üzvləri arasında mənzum məktublaşmaların geniş yayıldığına diqqət yetirilməsinə ehtiyac vardır. Bu dövrdə ayrı-ayrı şairlərin biri-birinə mənzum məktublar ünvanlaması müxtəlif səbəblərdən qaynaqlanır. Hər şeydən əvvəl, burada ədəbi istedadın nümayiş etdirilməsi məramı dayanmaqdadır. Bununla yanaşı, mənzum məktublar şairə yaşadığı dövr, zəmanə, cəmiyyət haqqında öz fikrini poetik şəkildə ifadə etmək imkanı verdiyindən qələm sahibləri bu janrın imkanlarından bəhrələnmişlər.

**"Təzkirə və ədəbi topluların inkişafı"** adlanan üçüncü paraqrafda göstərilir ki, XIX əsr Qarabağ ədəbi-mədəni həyatının mühüm özəlliklərindən biri də burada təzkirə, müxtəlif səpkili şeir toplularının və salnamələrin yaranmasıdır. Belə ki, Mirzə Yusif Qarabağinin "Məcmueyi Vaqif və müasirini-digər", Mir Mehdi Xəzaninin "Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirlər – Xəyalat məcmuəsi", Həsənəli Xan Qaradağinin "Xan Qaradaği təzkirəsi", Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Bəhmən Mirzə Qacarın "Təzkireyi-Məhəmmədşahi", Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin" və digər əsərlərin meydana gəlməsi poeziyanın öyrənilməsinə, tədqiqinə müəyyən imkanlar yaratmışdır.

Mirzə Yusif Qarabağinin "Məcmueyi Vaqif və müasirini-digər" adlı şeir toplusu tərtib orijinallığına görə diqqəti çəkir. 1856-cı ildə Teymurxanşurada (indiki Buynaksk) ərəb əlifbası, 1999-cu ildə Bakıda kiril əlifbası ilə nəşr olunan bu əsəri bəzi tədqiqatlarda təzkirə kimi də qiymətləndirmişlər. Lakin bu toplunu təzkirədən ciddi şəkildə fərqləndirən məqamlar mövcuddur. "*Əsəri təzkirə də adlandırmaq olmaz. Çünki təzkirələr müəlliflərin tərcümeyi-halını, həm də zaman etibarilə daha geniş dövrü əhatə edən bir ədəbi*

*əsərdir. "Məcmueyi-Vaqif..."də isə yalnız Vaqifin həyat və fəaliyyəti haqqında qısaca məlumat və müasirlərinin də ancaq adı və şeirlərindən bir neçə nümunələr verilmişdir"*[14]. Lakin bununla belə, bəhs olunan əsər dövrün poeziyası haqqında canlı, dolğun, xronoloji səpkidə məlumat verən bir toplu kimi mənbəşünaslıq baxımından mühüm dəyər daşımaqdadır.

Mir Mehdi Xəzaninin "Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirlər – Xəyalat məcmuəsi" XIX əsrdə yaranmış poetik məcmuələr içərisində özünəməxsusluğu ilə seçilir. XVIII-XIX əsr Qarabağ şairlərinin - Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Ələsgər Növrəs, Məhəmməd bəy Aşiq və b. əsərləri toplanmış bu məcmuə mətnşünaslıq baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

XIX əsr ədəbi-elmi fikrinin tanınmış siması Nəvvabın "Təzkireyi-Nəvvab" əsəriində Qarabağda yaşayıb-yaratmış olan şairlər haqqında məlumat və onların əsərlərindən nümunələr verilmişdir. Nəvvabın təzkirəsi iki hissədən ibarətdir. Təzkirənin birinci hissəsinə əsərin yazıldığı dövrdə dünyasını dəyişmiş Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Kərbəlayi Səfi Valeh, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Aşıq Pəri, Abdulla bəy Asi, Mirzə Məhəmməd Katib, Molla Sədi və başqaları kimi Qarabağda yaşayıb-yaratmış otuz beş şair haqqında qısa, yığcam məlumat və əsərlərindən nümunələr verilmişdir.

Təzkirənin ikinci hissəsində isə əsərin yarandığı dövrdə yaşayıb-yaradan Qarabağ şairlərindən bəhs olunmuşdur. Buraya əlli altı şairin yaradıcılıq irsindən nümunələr daxil edilmişdir.

XIX əsrdə Qarabağ ədəbi mühiti və təzkirə janrından bəhs olunarkən Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin" və Bəhmən Mirzə Qacarın "Təzkireyi-Məhəmmədşahi" əsərlərini də qeyd etmək lazımdır.

Dissertasiyanın ikinci fəsli **"Divan ədəbiyyati və epik şeirin əsas inkişaf xüsusiyyətləri"** adlanır və iki paraqrafdan ibarətdir.

---

[14] Qarabaği M.Y. Məcmuəyi-Vaqif və müasirini-digər, – Bakı: Şuşa nəşriyyatı, – 1992.– s.5

“**Divan ədəbiyyatı ənənələri**” adlanan birinci paraqrafda[15] göstərilir ki, XIX əsr Qarabağ ədəbi mühitində divan poeziyasının inkişafında özünəməxsus yaradıcılıq üslubu ilə diqqəti cəlb edən sənətkarlardan biri olan Seyid Həmzə Niğari zəngin poetik irs qoyub getmişdir. Mürəkkəb həyat və yaradıcılıq yolu keçmiş, həyatının mühüm bir qismini Türkiyədə mühacirətdə yaşamış olan Seyid Nigarinin klassik üslubda yazdığı əsərləri ictimati siqləti, bədii səviyyəsi ilə dövrün digər poetik örnəklərindən seçilir. Seyid Nigari irsi “*uzun illər tədqiqatdan kənarda qalmışdır. Artıq dəfələrlə deyildiyi kimi, bunun bir çox səbəbləri var. Ancaq heç bir repressiya və qadağalar Seyid Nigari irsini unutdura, onun şəxsiyyətinə olan ehtiramı yaddaşlardan silə bilməmişdir. Hətta insanlar zaman keçdikcə onun şəxsiyyətini mifləşdirmiş, əfsanələşdirmiş və əbədiləşdirmişlər. Bunun əsas səbəbi Seyid Nigari irsinin qədim mənəvi keçmişimizlə bağlılığı, eyni zamanda, həyatiliyi və yaşarılığıdır”*[16].

Seyid Nigari divan poeziyasının qəzəl, qəsidə, minacat, növhə, tərcin, rübai və başqa janrlarında yazmış, orijinal, bənzərsiz sənət örnəkləri ortaya çıxarmışdır. Şairin Azərbaycan türkcəsində “Divan”ı 1908-ci ildə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə tərəfindən Tiflisdə nəşr olunmuşdur. Sovet hakimiyyəti illərində Seyid Nigarinin əsərlərinə ciddi şəkildə qadağa qoyulduğundan şairin əsərləri nəşr olunmamış, haqqında tədqiqatlar aparılmamışdır.

Seyid Nigarinin tərcin janrında qələmə aldığı “Nə əcəb dövlət imiş seyri-şikari Qarabağ” şeiri yüksək vətənpərvərlik duyğusu ilə qələmə alınmış orijinal poetik örnəklərdən biridir.

*Nə əcəb dövlət imiş seyri-şikari Qarabağ,*
*Nə gözəl nemət imiş söhbəti-yari, Qarabağ.*
*Rəşki-mişk ənbər imiş buyi-qubari Qarabağ,*

---

[15] Aslan Z. XIX əsr Qarabağ ədəbi mühitində divan ədəbiyyatının yeni tərzdə inkişafı // – Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, Fundametal, humanitar və təbiət elmləri seriyası, –2011. № 1, – s.103-107

[16] Nigari S. Xaki-payın taci-sərim. Bakı:Azərbaycan nəşriyyatı,–2004, s.39

*Abi-heyvanimiş ənhar-bukari Qarabağ....*
*Dağlayıbdır məni bir lalə üzari-Qarabağ,*
*Yandırıbdır məni bir nari-Nigari-Qarabağ*[17].

Bu şeirdə Seyid Nigari XIX əsr Qarabağının canlı, poetik tarixini yaratmağa çalışmış və buna nail olmuşdur. Şair doğma vətəni olan Qarabağın gözəlliklərini təsvir etmək yolunu tutmamış, daha çox vətəndən ayrı düşməyin mənəvi dünyasında yaratdığı ağrı, əzab və iztirabları əks etdirmək məramı izləmişdir.

XIX əsrdə Qarabağ ədəbi mühitinin formalaşmasında "Xan qızı" Xurşidbanu Natəvanın divan ədəbiyyatı ənənələrinə söykənərək yazdığı əsərləri də xüsusi rol oynamışdır. Qeyd edək ki, Natəvan bədii yaradıcılığa XIX əsrin əllinci illərindən başlamışdır. Bədii yaradıcılığa "Xurşid" təxəllüsü ilə başlayan şairənin ilk əsərləri cüzi istisnalarla itib-batmış, zəmanəmizə qədər gəlib çatmamışdır. Yetmişinci illərdən etibarən "Natəvan" təxəllüsü ilə yazıb-yaradan müəllifin yaradıcılığının sonrakı dövrü haqqında kifayət qədər məlumat vardır. Natəvanın qəzəllərinin mühüm bir qismi məhəbbət mövzusundadır. Şairənin məhəbbət mövzusunda yazdığı şeirlərdə ənənəvi mövzunun yeni formada, yeni dəst-xətlə ifadə tərzinə təsadüf olunmaqdadır. Müəllifin qəzəlləri özünün dərin lirizmi ilə diqqəti çəkir. Saf və təmiz duyğuların yüksək bədii ifadəsi olan bu qəzəllər dərin mənəviyyat sahibi olan bir sənətkarın xəyal xəzinəsinin lirik təfriqələridir. Şairənin təsvir etdiyi eşq mücərrəd duyğu və düşüncələrin məhsulu deyil, həyata bağlı olan, gerçəklikdən qaynaqlanan hislərin poetik ifadəsidir. Natəvanın ən təsirli şeirləri oğlunun ölümündən sonra qələmə aldığı qəzəllərdir. Bəlli olduğu kimi, 1885-ci ildə şairənin ikinci əri Seyid Hüseyndən olan oğlu Mirabbas on yeddi yaşında xəstələnib vəfat edir. Bu gözlənilməz hadisə onu hədsiz dərəcədə sarsıdır. "Ağlar", "Əfsus", "Getmə", "Sənsiz" və digər qəzəllərində şairə oğlunun nakam şəkildə dünyasını dəyişməsindən duyduğu acı və kədərli təəssüratları ifadə etməyə çalışmışdır.

*Keçibdi mövsimi-cül, getdi növbahar, əfsus!*

---

[17] Nigari S.Xaki-payın taci-sərim. Bakı:Azərbaycan nəşriyyatı,–2004, s.295

*Qalıbdı bülbüli-biçarə xarü-zar, əfsus!*

*Riyazi-izzü şərafətdə bir gül açmışdı,*
*Qopardı ol gülü gülçini ruzigar, əfsus!*[18]

XIX yüzildə Qarabağda divan ədəbiyyatı ənənələrinin inkişafında Fatma xanım Kəminəninin özünəməxsus xidmətləri olmuşdur. Firidun bəy Köçərli onun yaradıcılığını yüksək qiymətləndirmiş, onu "Nadireyi-zəmanə" adlandırmışdır[19]. Fatma xanım Kəminənin dərin ictimai məzmunlu, zəmanədən şikayət motivli qəzəlləri bir tərəfdən onun yaşadığı dövrün başlıca problemlərini öyrənmək, digər tərəfdən müəllifin fəlsəfi görüşlərinin müəyyən məqamlarını aşkarlamaq baxımından əhəmiyyətlidir.

XIX yüzildə Qarabağ ədəbi mühitində divan ədəbiyyatı ənənələrinin inkişafında Abdulla bəy Asinin yaradıcılığı da diqqəti çəkməkdədir. Onun qəzəl, qəsidə, müxəmməs, müstəzad, tərcibbənd, təcnis və digər janrlarda yazdığı əsərlər orijinal poetik örnəklərindən hesab olunmaqdadır. "Təzkireyi-Nəvvab" adlı təzkirəsində onun yaradıcılığı haqqında qısa məlumat verilmişdir: "*Təxmin etdiyimə görə, şeirlərinin sayı min dörd yüz fərd olardı və hamısı da şəhid seyid cənablarına (İmami Hüseynə) olan növhələrdən, müxəmməs, müstəzad, tərcibbənd, təcnis, qəzəl və sairədən ibarət idi. Biçarənin ömrü vəfa etmədi, yoxsa ki, şairliyə lazım olan hər şey onda var idi*"[20].

Asinin nəşr olunan əsərləri içərisində daha çox diqqəti qəzəlləri cəlb edir. Şairin "Xudahafiz", "Neynirəm", "Mənim", "Gözlər" və digər rədifli qəzəlləri dil-üslub sadəliyi, bənzərsiz ifadə tərzi ilə seçilir. Ədibin qəzəllərində Füzulinin təsiri aşkar şəkildə duyulmaqdadır. İctimai motivli qəzəllərində isə şair həyat və

---

[18] Azərbaycan ədəbiyyatının tarixi poetikası (məqalələr toplusu). II kitab, – Bakı: Elm, – 2006.– s.63

[19] Köçərli F. Azərbaycan ədəbiyyatı, [2 cilddə], c.2, – Bakı: Avrasiya-Press, – 2005, s.169

[20] Nəvvab M. Təzkireyi-Nəvvab, –Bakı: Azərbaycan nəşriyyatı, 1998, s. 85

cəmiyyət hadisələrinə fəlsəfi prizmadan yanaşaraq öz dövrünün qüsur və nöqsanlarını tənqid hədəfinə çevirir.

XIX yüzildə Qarabağ ədəbi mühitində divan ədəbiyyatı ənənələrinin inkişafında Mir Mehdi Xəzaninin xidmətləri də təqdirəlayiqdir. Onun qəzəl, qəsidə, müxəmməs, müstəzad, müəttər və digər janrlarda yazdığı əsərlər janrın maraqlı, yaddaqalan örnəklərindən hesab olunmaqdadır. Şairin qəzəlləri əsas etibarilə məhəbbət mövzusunda yazılmışdır – "Dünyada", "Rəhm eylə", "Sənsiz", "Məni", "Kağız", "Əvəz", "Olmaz" rədifli qəzəllər bu baxımdan səciyyəvidir.

*Hər kəsin kim, bir vəfalı yarı yoxdur dünyada,*
*Elə bilsin ömrünün pərgarı yoxdur dünyada*[21]

- deyən şair eşqə, məhəbbətə böyük dəyər vermiş, onu mənəvi münasibətlərin ən ali mərtəbəsi kimi dəyərləndirmişdir.

XIX yüzildə Qarabağ ədəbi mühitində divan ədəbiyyatı ənənələrinin inkişafında Məhəmmədli bəy Məxfinin yaradıcılığının da xüsusi rolu olmuşdur. Onun ictimai, fəlsəfi və məhəbbət mövzusunda qələmə aldığı qəzəlləri özünəməxsusluğu ilə diqqəti çəkir. Şairin "Olur", "Titrər", "Qəmin", "Üstünə", "Könlüm", "Mənim", "Yazmışlar", "Sevər" və b. qəzəlləri orijinal dəstxətlə qələmə alınmış poetik örnəklərdir.

XIX yüzildə Qarabağda divan ədəbiyyatı ənənələrinin inkişafında Mirzə Həsən Qarabaği Yüzbaşovun poeziyası da mühüm rol oynamışdır. Şairin qəzəlləri əsas etibarı ilə məhəbbət mövzusunda qələmə alınmışdır. Bu baxımdan "Gəl", "Könlüm", "Görgəc", "Oldum", "Yox", "Tapşırdım", "Yarım", "Verməz" rədifli qəzəllər daha çox diqqəti cəlb edir.

İkinci fəslin "**Epik poeziya və yenilik axtarışları"** adlanan ikinci paraqrafında göstərilir ki, XIX əsrdə Qarabağ ədəbi mühitində epik poeziya özünəməxsus inkişaf yolu keçmişdir. Cəmiyyətin inkişafı, realist ədəbiyyatın prinsipləri, sənətin xalq həyatı ilə yaxınlaşması epik poeziyanın da təbii olaraq inkişafına təsirsiz qalmamışdır. Bəhs olunan dövrdə epik poeziyanın inkişafı

[21] Xəzani M.M. Əsərləri, – Bakı: Azərnəşr, – 1989, s.14

əsas etibarilə mənzum hekayə janrının fonunda gerçəkləşmişdir. Klassik Azərbaycan ədəbiyyatında qədim ənənəyə malik olan mənzum hekayənin XIX əsrdə yaranan örnəkləri bu janrın poeziyanın aparıcı janrlarından birinə çevrilməsinə təkan vermişdir. "*XIX əsrdə Azərbaycan mənzum hekayəsi bütün forma və məzmun əlvanlığı ilə meydana çıxaraq ədəbi fikrin aparıcı janrlarından birinə çevrilir*"[22]. Bu xüsusiyyət Qarabağ ədəbi mühitində yaranan poetik örnəklər üçün də bu və ya digər dərəcədə səciyyəvidir.

Qarabağ ədəbi mühitində epik poeziyanın inkişafında Q.Zakirin xüsusi rolu olmuşdur.[23] Şairin mənzum hekayələrində öz dövrünün və mühitinin bu və ya digər hadisələri, səciyyəvi məqamları təcəssümünü tapmışdır. Janrın poetikası baxımından Zakirin mənzum hekayələri didaktik ruhu, yığcamlığı, lakonikliyi, müdrik kəlamlarla və aforizmlərlə müşayiət olunması, süjetin sadəliyi, hadisələrin gözlənilməz finalla tamamlanması, dialoqlardan istifadə üsulu, kompozisiya rəngarəngliyi və s. özünəməxsus keyfiyyətlərlə yoğrulduğundan bu əsərlər hələ şairin sağlığında ədəbi-nəzəri fikrin diqqətini çəkmişdir. "Həyasız dərviş və ismətli qadın", "Həyasız dərvişlər haqqında", "Bihəya türk", "Xalqa vəz deyən, özü fisqü-fücurdan çıxan biəməl alim" kimi mənzum hekayələrində əsas tənqid hədəfi kimi din və şəriət xadimləri seçilmişdir.

XIX əsr Qarabağ ədəbi mühitində epik poeziyanın inkişafında M.H.Qarabağinin də mühüm xidmətləri olmuşdur. Onun məsnəvi tərzində yazdığı "Rəsmi-vilayəti-Qarabağ və şəhri-Şişə" əsərində XIX yüzildə Qarabağ mühitində təsadüf olunan ictimai qüsur və növsanlar bədii şəkildə təcəssümünü tapmışdır.

"Ağ yalançı", "Yoxsul", "Hazırcavab", "Fələkzədə", "Əhdindən dönən", "Oğru", "Tabaq toxumu çinar dibində", "Yeddi oğullu

---

[22] Azərbaycan ədəbiyyatının tarixi poetikası (məqalələr toplusu). II kitab, – Bakı: Elm, – 2006, s. 416

[23] Aslan Z. Qasım bəy Zakirin yaradıcılığı və Qarabağ ədəbi mühiti // – Bakı: Filologiya məsələləri, – 2019, № 9, – s.320-328

padşah" kimi əsərləri ilə dövrün ənənəvi poetik örnəklərindən fərqli bədii nümunələr ortaya çıxaran H.Qaradağinin bu sahədəki fəaliyyəti poeziyanın xalq həyatına yaxınlaşmasına, dilinin-üslubunun sadələşməsinə xeyli dərəcədə təsir göstərmişdir.

XIX əsr Qarabağ ədəbi mühitində epik poeziyanın inkişafında mənzum məktubların da xüsusi rolu olmuşdur. Belə ki, M.H. Qarabaği, Q.Zakir, M.Nəvvab, H.Qaradaği və başqaları yazdığı mənzum məktublarla poeziyada epik düşüncənin və ifadə tərzinin bu və ya digər şəkildə inkişafına rəvac vermişlər.

Dissertasiyanın üçüncü fəsli "**Poeziyada ictimai motivlərin və realist inikas çalarlarının güclənməsi"** adlanır və üç paraqrafdan ibarətdir. "**Xalq şeiri üslubuna qayıdış"** adlanan birinci paraqrafda göstərilir ki, XIX əsrdə Azərbaycan ədəbiyyatında xalq şeiri üslubunda yaranan poeziya örnəkləri Qarabağ ədəbi mühitində də özünü büruzə verməkdədir. Bu dövrdə xalq şeiri üslubuna qayıdış müstəvisində "*tamamilə xalqdan, danışıq dilindən alınmış, nədənsə son zamanlara qədər ədəbi dilə, yazıya düşməmiş sözlər bədii əsərlərə cəsarətlə gətirilir*"[24]. Xalq şeiri üslubunda yazıb-yaradan şairlər içərisində Q.Zakirin qoşma, gəraylı, təcnis, bayatı və digər ədəbi türlərdə yazdığı əsərləri diqqəti cəlb etməkdədir. Q.Zakirin bu üslubda yazdığı şeirləri aşıq ədəbiyyatı ənənələrindən qaynaqlanmada, bu zəngin xəzinədən qida almaqdadır. Elə buna görə də şairin bəzi qoşmalarını aşıq poeziyası örnəklərindən ayırmaq mümkün deyildir:

*Dərd bilməzlər qınar məni, heç deməz,*
*Dərd ilən doludur döşüm, ağlaram.*
*Çərxin sitəmindən, dövrün zülmündən,*
*Tökülür dəmbədəm yaşım, ağlaram*[25].

Q.Zakirin xalq şeiri üslubunda qələmə aldığı yaradıcılıq örnəkləri fərqli poetik özəllikləri ilə diqqəti çəkməkdədir. Şairin qoşma, gəraylı, bayatı və digər janrlarda yazdığı mənzumələri dilinin sadəliyi, üslubunun əlvanlığı ilə maraq doğurur: "*Zakirin*

---
[24] Mir Cəlal. Klassiklər və müasirlər, – Bakı: Azərnəşr, – 1973, s.3
[25] Zakir Q. Seçilmiş əsərləri, – Bakı: Avrasiya-Press, –2005, s. 173

*gəraylıları ruh, məzmun etibarilə şifahi xalq ədəbiyyatına o qədər yaxındır ki, bunların möhürbəndi olmasa, xalq yaradıcılığı nümunələrindən ayırmaq çətin olar"*[26]. Şübhəsiz ki, tədqiqatçının qənaətləri ilə razılaşmamaq çətindir. Həqiqətən də, şairin gəraylıları yalnız "ruh, məzmun etibarilə" deyil, həmçinin dil-üslub xüsusiyyətləri baxımından xalq yaradıcılığı nümunələrinə son dərəcə yaxındır.

XIX əsrdə Qarabağ ədəbi mühitində xalq şeiri üslubunda yazıb-yaradan sənətkarlardan biri də Baba bəy Şakirdir. "*Qarabağın Cavanşir eilndən, Qarabağ xanlığının binasını qoyan Pənah xanın nəslindən"*[27] olan şairin özünəməxsus poetik üslubda qələmə aldığı şeirləri bəhs olunan dövrün dəyərli örnəkləri kimi səciyyələndirilməkdədir. Şairin "Ay mədəd", "Dönüb", "Üstünə", "Ərz elə" kimi qoşmaları, "Gəlməz" rədifli gəraylısı xalq şeiri üslubunun qiymətli örnəklərindəndir.

XIX əsrdə Qarabağda xalq şeiri üslubunda yazıb-yaradan iki şairənin – Ağabəyim ağanın və Aşıq Pərinin sadə, anlaşıqlı, təmiz ana dilində yazmış olduğu şeirləri poeziyanın xalq kütlələri arasında yayılmasında mühüm rol oynamışdır.

Dissertasiyanın üçüncü fəslinin "**Maarifçi-realist poeziyanın təşəkkülü"** adlanan ikinci fəslində göstərilir ki, XIX əsr maarifçi-realist poeziyaının təşəkkülü və inkişafı özünəməxsusluğu ilə diqqəti cəlb edir[28]. Bu özünəməxsusluq Qarabağ ədəbi mühitində də aşkar duyulmaqdadır. Belə ki, "*XIX əsrdə realizmın əsas yaradıcılıq metodu, habelə ədəbi cərəyan kimi təşəkkül tapması və inkişaf etməsi qanunauyğun bir hadisə idi; tarixi gedişin inkişafından doğurdu"*[29]. Şübhəsiz ki, maarifçi-realist poeziyanının

---

[26]Zakir Q. Seçilmiş əsərləri, – Bakı: Avrasiya-Press, –2005, s. 8

[27] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqlər, – Bakı; APİ nəşriyyatı, – 1960, s.68

[28] Aslan Z. XIX əsr Qarabağ ədəbi mühitində maarifçi-realist poeziyanın təşəkkülü // – Gəncə: Gəncə Regional Elmi Mərkəzinin Xəbərləri, – 2009. №35, –s.136-139

[29] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqlər, – Bakı; APİ nəşriyyatı, – 1960, s.7

inkişafında M.P.Vaqifin əsasını qoyduğu realist ədəbi məktəbin xüsusi rolunu qeyd etməyə xüsusi ehtiyac vardır. Daha sonra A.Bakıxanov və M.F.Axundov tərəfindən inkişaf etdirilən realist ədəbi məktəb poeziyanın yeni bir məcraya daxil olmasında xüsusi rol oynadı.

Maarifçi-realist poeziyanın XIX əsr Qarabağ ədəbi mühitində özünəməxsus inkişafı və yeni bədii çalarlar qazanmasında H.Qaradağinin yaradıcılığı xüsusi yerlərdən birini tutur. Poeziyanın müxtəlif janrlarına müraciət edən Həsənəli xan Qaradağinin uşaqlar üçün yazdığı şeirlər bu mənada daha çox diqqəti çəkir. Onun A.O.Çernyayevskinin sifarişi ilə yazdığı və 1888-ci ildə çap olunan "Vətən dili" dərsliyinin ikinci cildinə daxil edilən şeirləri Qarabağ ədəbi mühitində yaranan maarifçi poeziyanın maraqlı örnəklərindən hesab olunmaqdadır. Ədibin "Uşaqlar yazda", "Bahar mənzərəsi", "Məktəbli uşaqlara", "Nəğmə", "Bənövşə", "Aylar", "Yeddi ildız və bürclər", "Saniyədən əsrə", "İlin fəsilləri", "Yaz", "Yay", "Payız", "Qış", "Çiçəklər" kimi şeirləri bu qəbildəndir.

M.Xəzaninin yaradıcılığında da maarifçi-realist poeziya örnəklərinə təsadüf olunmaqdadır. Öz dövründə insanların cəhalət və savadsızlığından şikayətlənən, milləti qəflət yuxusundan oyandırmaq üçün elmə, biliyə, təhsilə rəvac verməyin vacibliyinə diqqəti çəkən, özü də aktiv pedaqoji fəaliyyətlə məşğul olan şairin şeirlərində maarifçilik ideyalarının davamlı şəkildə təbliğ olunması təbiidir:

*Fürsətin ta əldə var, elmü-əməl təhsil qıl,*
*Nabələd əma olur, yoldan xəbərdar olmasa*[30]

Daha çox klassik üslubda yazıb-yaradan M.Ə.Növrəsin yaradıcılığının mühüm bir qismi maarifçi-didaktik məzmunlu poetik örnəklərdən ibarətdir. Şairin "Rəndi-ətfal" adlı iri həcmli əsəri bu baxımdan səciyyəvidir. Uşaqlara nəsihət ruhunda qələmə alınmış bu əsərdə ənənəvi maarifçi poeziyada olduğu kimi elmin, məktəbin tərifi əsas tutulmuşdur.

---

[30] Xəzani Mir Mehdi. Əsərləri, – Bakı: Azərnəşr, – 1989, s.14

Qarabağ ədəbi mühitində maarifçi-realist məzmunlu şeirlər poeziyanın digər sahələri ilə müqayisədə bir qədər zəif inkişaf etmişdir və maarifçi-realist səpkili şeirlər daha çox əsrin ikinci yarısında qələmə alınmışdır. Bununla belə, maarifçi-realist poeziya bütövlükdə Qarabağ ədəbi mühitinin məzmunca yeniləşməsinə ciddi təsir göstərmişdir.

Üçüncü fəslin sonuncu paraqrafı "**Satirik şeirin bədii ifadə imkanları"** adlanır.

XIX əsr Qarabağ ədəbi mühitində satirik poeziyanın inikişafı sənətdə realizm prinsiplərini gücləndirmiş, xalqın gündəlik həyatı, güzəranı ilə bağlı problemlərin şeirə gəlişi üçün imkanlar yaratmışdır[31]. Bəlli olduğu kimi, "*XIX əsr Azərbaycan poeziyasının əsas qollarından biri də realist satiradır. Ölkənin sosial-iqtisadi həyatında ictimai və milli zülmə, müstəmləkəçilik siyasətinə qarşı etiraz, mövcud vəziyyətdən narazılıq əhvali-ruhiyyəsinin qüvvətlənməsi və xalq azadlıq hərəkatının genişlənməsi - bədii ədəbiyyatda kəskin, açıq tənqidi pafosun meydana gəlməsi ilə nəticələnir; əsrlər boyu gah dəhşətli faciələrlə ağlayan, gah da azadlıq həsrəti ilə alışıb yanan, gözəllik və məhəbbəti tərənnum edən, qəhrəmanlara və hökmdarlara mədhiyyə oxuyan, təbiətə, bahara, gülə və bülbülə nəğmələr qoşan bəşəriyyət indi bədii təffəkküründə tənqidə geniş yer verir, «həyat haqqında amansızcasına açıq danışan» əsərlər yazırdılar"*[32].

Qarabağda satirik poeziyanın inkişafı və xüsusi bir istiqamət kəsb etməsi daha çox Q.Zakirin adı ilə bağlıdır. Onun zəngin və çoxcəhətli yaradıcılığının mühüm bir qolunu məhz satira təşkil etmişdir. Qasım bəy Zakirin Mirzə Fətəli Axundova ünvanladığı "Vilayətin məğşuşluğu haqqında" mənzum məktubu yalnız bəhs olunan dövrdə Qarabağ ədəbi mühitində deyil, bütövlükdə XIX

---

[31] Aslan Z. XIX yüzil Qarabağ ədəbi mühitində satirik poeziyanın inkişafı // Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları, – Bakı: 2012, – s.8-11

[32] XIX əsr Azərbaycan şeiri antologiyası. – Bakı: 2005, [Elektron resurs] / URL: http://www.anl.az/el/latin_qrafikasi/ea/az.an.pdf, s.19

yüzil poeziyasında yaranmış satiranın ən mükəmməl örnəklərindən biridir.

*Xəbər alsan bu vilanın əhvalın,*
*Bir özgədir keyfiyyəti-Qarabağ.*
*Həqdi, bundan əqdəm görübsən sən də,*
*Hanı o qaidə, o qanun sayaq?*[33].

Şairin "Təbibləri həcv", "Şuşa mollaları haqqında", "Knyaz Xasay Usmiyev haqqında həcv", "Divanbəyiləri həcv", "Var özgə vilayətdə də tək-tək köpəy oğlu" və b. şeirləri məhz həcv kimi qələmə alınmışdır. Şairin həcvlərində bəzən ədəbsiz söz və ifadələrə təsadüf olunsa da, bütövlükdə bu əsərlər yüksək peşəkarlıqla qələmə alınmış, janrın kamil örnəkləri kimi dəyərləndirilə bilər. Onu da söyləyək ki, müəllif həcvlərinin bir qismini məktub şəklində qələmə almışdır.

XIX əsrdə Qarabağ ədəbi mühitində satirik poeziyanın inkişafında B.Şakirin yaradıcılığı da özünəməxsus yerlərdən birini tutur. Onun satiralarında Qarabağda çar üsul-idarəsinin yeritdiyi ağır müstəmləkəçilik siyasəti, özbaşınalıq, haqsızlıq, ədalətsizlik, əxlaqsızlıq sərt şəkildə tənqid olunmuşdur. Baba bəy Şakirin müxtəlif şəxslərə ünvanladığı satirik mənzumələrdə "*öz əksini tapan ifadələr, obrazlar başdan-başa konkret, realist sosial detallardan ibarətdir və Qarabağda bugünkü vəziyyət üçün də xüsusilə rəmzi və müasir səslənir"*[34]. Baba bəy Şakirin bəzi satiraları həcv janrında qələm alınmışdır. Bunların içərisində "Nəmirli Əmiraslanın həcvi", "Qarabağlı Mehdi bəyin həcvi", "Təriqət şeyxlərinin və onlara uyanların həcvi" və b. bu baxımdan səciyyəvidir. Şairin həcvlərində bəzən açıq-saçıq söz və ifadələrə təsadüf olunur ki, bu cəhət onun əsərlərinin bədii keyfiyyətinə müəyyən qədər xələl gətirməkdədir.

XIX əsr Qarabağ ədəbi mühitində satirik poeziyadan bəhs edərkən təmsil janrında da xeyli bədii örnəyin yarandığına diqqət yetirmək lazımdır. Bu dövrdə ənənəvi səpkidə yaranan təmsillərlə

---

[33] Zakir Qasım bəy. Seçilmiş əsərləri, – Bakı: Avrasiya-Press, –2005, s. 21
[34] Qarayev Y. Tarix: yaxından və uzaqdan, – Bakı: Sabah, – 1996, s.561

yanaşı, məzmun, dil və üslub yeniliyi ilə seçilən bədii nümunələr daha çox özünü büruzə verməkdədir.

**“Nəticə**”də tədqiqatın əsas qənaətləri ümumiləşdirilmişdir. Belə qənaətə gəlinmişdir ki, XIX əsr Qarabağ ədəbi mühiti özünəməxsus, bənzərsiz, mürəkkəb inkişaf yolu keçmişdir. Bu özünəməxsusluq istər mövcud ədəbi mühitin formalaşamasını şərtləndirən icitmai-siyasi amillərlə, istərsə də yaranmış bədii örnəklərlə müşayiət olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı məqalə, konfrans materiallarında öz əksini tapmışdır:**

1. Fatma xanım Kəminənin yaradıcılığı // – Bakı: Elmi axtarışlar, – 2004. XII cild, – s.52-56

2. Mir Möhsün Nəvvab: şair, alim, maarifçi, rəssam, musiqişünas // Bakı: Dil və ədəbiyyat, – 2006. № 2(50), – s.147-149

3. XIX əsr Qarabağ ədəbi mühitində maarifçi-realist poeziyanın təşəkkülü // – Gəncə: Gəncə Regional Elmi Mərkəzinin Xəbərləri, – 2009. №35, –s.136-139

4. XIX əsr Qarabağ ədəbi mühitində təzkirə və topluların yaranması, // Bakı: Dil və ədəbiyyat, – 2009, № 2(68), – s.131-132

5. XIX əsr Qarabağ ədəbi məclislərinin poeziyanın inkişafında rolu // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, –2010. № 2 – s.98-103

6. XIX əsr Qarabağ ədəbi mühitində divan ədəbiyyatının yeni tərzdə inkişafı // – Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, Fundametal, humanitar və təbiət elmləri seriyası, –2011. № 1, – s.103-107

7. XIX yüzil Qarabağ ədəbi mühitində satirik poeziyanın ifadə imkanları // – Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, Fundamental, humanitar və təbiət elmləri seriyası – 2011. № 3, – s.155-159

8. XIX yüzil Qarabağ ədəbi mühitində satirik poeziyanın inkişafı // Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları, – Bakı: 2012, – s.8-11

9. XIX yüzil Qarabağ ədəbi mühitinin ümumi mənzərəsi // "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda beynəlxalq elmi konfransın materialları, – Bakı: 2015,– s.225-227

10. Qasım bəy Zakirin yaradıcılığı və Qarabağ ədəbi mühiti // –Bakı: Filologiya məsələləri, – 2019, № 9, – s.320-328

11. Seyid Həmzə Nigarinin poeziyasında klassik ənənə və novatorluq axtarışları // "Elm və təhsilin aktual problemləri" I beynəlxalq elmi konfransın materialları, – Bakı: 2019, – s.357-362

12. Political and Cultural Factors Forming literary environment of Karabkh of XIX century // – Киев: Мова и култура, – Выпуск 18, Том III (178), – с.60-65

13. Роль Хуршидбану Натаван в формировании карабахской литературной среды XIX века // – Киев: Вісник Университету имени Альфреда Нобеля, Серия Філологічні Науки, – 2019. №2 (18), – с.75-80.

**Dissertasiyanın müdafiəsi _29_ _dekabr_ _2023-cü_ il tarixində saat _16⁰⁰_ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi,31**

**Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat _29 noyabr_ _2023_ il tarixində zəruri ünvanlara göndərilmişdir.**

**Çapa imzalanıb:  14.11.2023**

**Kağızın formatı: 60x84/ 1/16**

**Həcm: 40424 işarə**

**Tiraj: 100 ədəd**